# “Astara Azərbaycanın mirvarisidir”

## MİLLİ MƏCLİSİN DEPUTATI RƏŞAD MAHMUDOV ASTARADA GÖRÜŞ KEÇİRİB

**V çağırış Milli Məclisə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülərək 77 saylı Astara seçki dairəsindən deputat seçilən məşhur ürək-damar cərrahı Rəşad Mahmudov rayonun ərazi icra nümayəndələri və bələdiyyə sədrləri ilə görüş keçirib.**



Nitqinə seçkilərdən öncə keçirdiyi görüşlərdə verdiyi vədlərlə başlayan R.Mahmudov Astaranın bundan sonra daha da gözəlləşməsi, turizm mərkəzlərindən birinə çevrilməsi, insanların yaşayış səviyyəsinin yaxşılaşması, rayonda müxtəlif sahələrin daha da inkişaf etdirilməsi üçün qanun çərçivəsində bütün imkanlardan istifadə edəcəyini bildirib: “Bu günə kimi rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayevin rəhbərliyi ilə Astarada xeyli müsbət işlər görülüb, bir çox kəndlərə yeni yollar çəkilib, məktəblər, tibb məntəqələri tikilib istifadəyə verilib. Rayon mərkəzində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, dənizkənarı bulvar yaradılıb və s. Bu işlər bundan sonra da davam etdiriləcək. Biz bunun üçün səylərimizi daha da artırmalıyıq. Hər kəs öz öhdəsinə götürdüyü işi layiqincə yerinə yetirməlidir. Burada kənd təsərrüfatının inkişafı da mütləq şərtlərdən biridir. Dahi liderimiz Heydər Əliyevin də dediyi kimi, “Astara Azərbaycanın mirvarisidir”. Biz bu müdrik kəlamı rəhbər tutaraq rayonumuzun nə qədər məhsuldar, potensiallı bir məkan olduğunu ortaya qoymalıyıq. Bu gün Astarada 927 nəfərə yaxın adam sosial yardım alır. Dövlət tərəfindən bu yardımlar bundan sonra da davam etdiriləcək. Mən dünən bir neçə görüş keçirmişəm. İnsanların əksəriyyəti səhiyyə xidmətləri ilə əlaqədar olaraq Bakıya gəlmək istəyir. Sevindirici xəbər olaraq tam əminliklə deyirəm ki, tezliklə bütün bunlara son qoyulacaq. Artıq Səhiyyə Nazirliyi ilə danışıqlar aparılıb və müsbət cavab alınıb. Çox qısa bir zamanda Mərkəzi Neftçilər Xəstəxanasında olan bütün tibbi avadanlıqların, hələlik anju aparatı xaricində, hamısı Astara rayon xəstəxanasında olacaq və hər bir vətəndaşa çox yüksək səviyyədə xidmət göstəriləcək. Bunlarla əlaqədar olan ixtisaslı həkim kollektivini də gətirib burada yerləşdirəcək, onlara daim nəzarət edəcəyik. Bu proses o zamana kimi davam edəcək ki, cəmiyyətin bütün nümayəndələri ilə yanaşı, qonşu rayonların insanları da Bakıda yox, məhz burada, tam güvənli bir şəkildə müalicə alacaqlar. Yalnız bundan sonra biz gördüyümüz işlərin nəticələrindən danışa biləcəyik. Bildiyiniz kimi, bu gün dünyada uşaq və ana ölümü geniş yayılıb. Azərbaycan bunu ən minimuma endirən ölkələrdən biri olsa da, bu istiqamətdə hələ görüləcək işlər çoxdur. Bu səbəbdən Türkiyənin tanınmış mütəxəssis mərkəzlərindən biri ilə danışıqlar aparmışıq ki, gəlib burada kurslar keçsinlər. Burada əsas diqqət uşaq anadan olandan sonra ona baxan həkimlərin, tibb bacılarının təkmilləşdirilməsinin tələb olunan səviyyəyə çatdırılmasıdır. Mənim ən böyük arzum yaşla əlaqədar təqaüdə çıxdıqdan sonra ailəmlə birlikdə doğma Astarada rahat bir şəkildə yaşamaqdır. Bunun üçün isə hər birimiz bacardığımız qədər bir-birimizə yardımçı olmalıyıq. Özümüzə nəyi layiq görürüksə digərlərinə də onu layiq görməliyik. Mən 1990-cı illərdə Türkiyənin Antalya şəhərində turizmin necə inkişaf mərhələsi keçdiyinin canlı şahidi olmuşam. Antalyanı turizm mərkəzi edən təkcə Türkiyə dövləti deyil, eyni zamanda türk millətidir, orada yaşayan insanlardır. Niyə bizdə belə olmamalıdır? İnanın ki, Astaranın təbiəti Antalyanın təbiətindən də gözəldir. Sadəcə, insanlarımız da bunun fərqində olmalı və bu sahədə dövlətə dəstək verməlidirlər”.





İcbari sığorta məsələsinə də toxunan Milli Məclisin deputatı Astara rayonunun adını bu sahədə yeni başlayacaq pilot layihəyə saldırmaq üçün bütün imkanlardan istifadə edəcəyini bildirib: “Hazırda Astaranın pilot layihə çərçivəsində icbari sığortanın başlandığı yer olması üçün çalışıram və inşallah bu, müsbət sonluqla bitəcək. Bu, sakinlər üçün çox böyük reallıqlar yaradacaq. Eyni zamanda təhsil sahəsində də müəyyən dəyişikliklərin olunması nəzərdə tutulur. İstəyirik ki, regional təhsil idarəsi Astara şəhərində yerləşsin. Ümumiyyətlə, təhsilin inkişafı üçün əlimizdən nə gəlirsə onu da edəcəyik”.

“Hirkan” Milli Parkının ərazisində yerləşən kəndlərin sakinlərinin qeydiyyat məsələsinə də toxunan deputat artıq bu məsələnin böyük ölçüdə həll olunduğunu bildirib: “Məlum olduğu kimi, “Hirkan” Milli Parkının ərazisində yerləşən bir neçə kəndin sakinləri uzun zamandır qeydiyyatla bağlı problem yaşayır. Vaxtilə bu işlərin həll edilməsinə çalışılsa da, qeyri-müəyyən səbəblərdən buna nail olunmayıb və məsələ həll olunmamış qalıb. Artıq bu məsələ yenidən gündəmə gətirilib, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və digər aidiyyəti qurumlarla danışıqlar aparılıb. Bütün sənədlər lazımi nazirliyə təqdim olunub. İnanıram ki, icra strukturları ilə yanaşı, digər aidiyyəti qurumların da dəstəyi ilə bu problem köklü şəkildə həll olunacaq”.

Astaranın Azərbaycandan kənarda da tanınmasının vacibliyini vurğulayan R.Mahmudov bu istiqamətdə bir sıra planların olduğunu bildirib: “Məlum olduğu kimi, tarixən Astara ölkəmizdə ən çox velosipedin sürüldüyü rayonlardan biridir. Fikir var ki, bu nəqliyyat sahəsini inkişaf etdirmək üçün yaxın zamanlarda rayonun bütün küçə və prospektlərində ayrıca velosiped zolağı salınsın, müəyyən yerlərdə veloparklar qurulsun. Eyni zamanda 2017-ci ildə dünya velosiped yarışının Astara şəhərində keçirilməsi kimi bir təşəbbüslə də çıxış etməyi düşünürük. Bu, bütünlükdə rayonun inkişafı, yeni investisiyaların cəlb olunması baxımından da əhəmiyyətlidir. Hamıya yaxşı məlumdur ki, velosiped həm ekoloji, həm sağlamlıq, həm də büdcəyə qənaət baxımından çox xeyirlidir. Ümumiyyətlə, Astara ilə bağlı planlar, görüləcək işlər çoxdur. Çalışacağıq ki, mərhələli şəkildə kompleks bir inkişafa nail olaq. Hər şey planlı şəkildə, dövlətin və vətəndaşların dəstəyi ilə həllini tapmalıdır. Hamımız ölkəmizin dinamik inkişafı naminə cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşməliyik”.

Günün ikinci yarısında isə deputat Rəşad Mahmudov 50 nəfərə yaxın seçicini qəbul edərək onların müraciətlərini dinləyib. Bir neçə vətəndaşın problemini yerindəcə həll edən deputat, digər şikayətçilərin qaldırdıqları məsələlərin həlli üçün rayonun aidiyyəti qurumlarına tövsiyələrini verib.

**Taleh Bağırov,**
***“İki sahil”***